SƏRİYYƏ MÜSLÜMQIZI

# DÜNYA SUSMASIN GƏRƏK

YAZIÇI

Bakı - 2014



Yığılmağa verilmişdir: 01.10.2014
Çapa imzalanmışdır: 15.10.2014
Kağız formatı: 70x100 1/12
Fiziki çap vərəqi: 6
Mətbəə kağızı: № 01
Sifariş: № 004 Sayı: 100 nüsxə
***Ofset üsulu ilə çap olunmuşdur.***
*Kitab "YAZIÇI" nəşriyyatında yığılıb səhifələnmişdir,*
*Ünvan: Bakı, Mətbuat pr. 24,*
*Telefon:(99412) 510-68-49, (99412) 510-79-94*
***E-mail: desinger2010@mail.ru***

63.3(5Aze)
M 96

SƏRİYYƏ MÜSLÜMQIZI

# DÜNYA SUSMASIN GƏRƏK

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 84376

Bakı - 2014

Az2
2014
S 63
BBKC 63

"Dünya susmasın gərək"*(sənədli xronika)*, Səriyyə Müslumqızı.
(Azərbaycan və ingilis dillərində) Bakı, "Yazıçı" nəşriyyatı - 2014, 84 səh.
*"Xocalıya ədalət" layihəsi çərçivəsində*

**Səriyyə Müslümqızı çağdaş ədəbiyyatımızın tanınmış simalarından biridir. Onun Xocalı faciəsi fonunda yazdığı bu əsər Qarabağ boyda bir ağrısı olan vətənpərvər yazıçı ürəyinin qanı ilə yoğrulmuşdur.**

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının malyyələşdirdiyi layihə çərçivəsində "Erməni Təcavüzünün tandılması" İctimai Birliyi tərəfindən nəşr edilmişdir.**

Nəşriyyatın direktoru:
**Şəmsi VƏFADAR**

Redaktor:
**İmran BƏDİRXANLI**

İngilis dilinə çevirənlər:
**Nərmin ABBASOVA,**
**Adilə AĞABƏYLİ**

Kompyuter dizaynı:
**Ələsgər QARAMƏMMƏDLİ**

S 5204000251 - (004) / M - 656 - 2014 qrifli nəşr

©YAZIÇI

# DÜNYA SUSMASIN GƏRƏK

***(Əsərdə istinad edilməyən hadisələrin təsviri müəllifin özünə məxsusdur)***

...Kəndimizin sağında-solunda dibindəki daşları belə görünən Xocalı və İlisu çayları, yuxarıda əzəmətli Boz dağı, qalın Kətik meşəsi vardı. Yazda bu meşənin böyründəki yamacda "lalə dənizi" dalğalandıqca dalğalanardı. Quşlar cəh-cəh vurar, sarıköynək, qumru uçub eyvanımıza qonardı. Səhərlər bülbülün səsinə oyanardım. Həyətlərdə qızılgül, yasəmən kollarından rəngbərəng güllər açardı. Bizim həyətimizdə də qolu-budaqlı bir yasəmən ağacı vardı. Onun ətri hər tərəfə yayılardı. Kəndimizin yazı da, qışı da bir aləm idi. İnsanlarda həyat eşqi, yaşamaq həvəsi vardı. Hər şey gözəl idi. Ta 1988-ci ilə kimi...

...O soyuq fevral günündə, lap dəqiqi, fevralın 13-də kəndə xəbər yayıldı ki, ermənilər yenə də torpaq davası edirlər. XX əsrin əvvəllərində erməni-müsəlman davasını görmüş ixtiyar yaşındakı Sona nənə bu xəbərdən bərk sarsıldı. Məktəbin yaxınlığındakı "urus" bulağından su aparan qarının rəngi avazıdı. Əlindəki su dolu sərnic yerə düşdü. Sona nənə üzünü göyə tutub əllərini yuxarı qaldırdı: "Xudaya, bizi bu bəladan saxla. Gavırlar hər dəfə torpaq davasına başlayanda qan su yerinə axır", - deyərək məlum-məlum böyrü üstə düşən sərnicinə baxdı. Dərsdən çıxan uşaqlar isə Sona nənənin başına toplaşıb, "Sona nənə, gavır nə deməkdir?"-soruşurdular. Sona nənə isə çaşqınlıqla uşaqların üzünə baxırdı. Handan-hana özünə gəlib: "Bala, gavır ermənidi. Onlar yenə torpaq istəyirlər. Gözləri doymur ki, doymur"- dedi. Bu vaxt kəndin ortasında sabiq icra başçısı E.Məmmədovun qırmızı rəngli "Moskviç"i göründü. Onun paltosunun düymələri qırılıb tökülmüşdü. Sən demə, Əsgəranda iclasa çağrılan bir qrup ziyalımızı erməni millətçiləri təhqir etmiş, üst-başlarını dartıb-cırmışdılar. Onlar güc-bəla ilə başıpozuq kütlədən canlarını qurtarmışdılar. Hadisə elə hüquq-mühafizə orqan-

larının gözü qarşısında olmuşdu. O gündən Əsgəranda, Xankəndində mitinqlər, nümayişlər başladı. Xatırladım ki, 1988-ci ilin yanvarında Ağdərə rayonunun Sırxavənd kəndində bir qrup azərbaycanlı gəncin döyülməsi ilə başlayan münaqişə hələ də bitmək bilmir. Ağdərədə yaşayan ermənilər "bura erməni rayonudur, siz türklər buranı tərk etməlisiz", -demişdilər.

...1988-ci ildə Ermənistanda yaşayan soydaşlarımız Azərbaycana üz tutdular. Xocalıya pənah gətirənlər məktəblərdə, mədəniyyət evində yerləşdirildi. Həmin ilin yanvarın 25-də Qafan və Mehri rayonlarında azərbaycanlıların ilk qaçqın dəstələri göründü. 1988-ci il fevralın 13-də Xankəndində Vilayət Partiya Komitəsinin binası qarşısında ermənilərin ilk mintiqi başladı. 400 adamın çıxarıldığı o mitinqdə "Krunk" (Durna) təşkilatı daha çox fəallıq göstərirdi. Həmin təşkilata vilayətin daş- mərmər karxanalarının faktiki sahibi, millətçi A.Manuçarov rəhbərlik edirdi. İlikləri donduran şaxtada, qarda belə mitinqlər ara vermirdi. Qadınlar uşaq arabaları ilə mitinqə axışırdılar. Şüarları isə "Dağlıq Qarabağ Ermənistana birləşdirilməlidir!" idi. Dağlıq Qarabağ erməniləri Ermənistana birləşmək uğrunda küçə və meydanlara axışır, gecə-gündüz "Miatsum" deyə bağırırdılar.

Yaxşı yadımdadır, bir vaxtlar tanıdığımız ermənilər etiraf edirdilər ki, bizi güclə küçə və meydanlara çıxarıb, nümayişə çağırırdılar. Getməyənlər döyülür, söyülür, təhqir olunurdular. Hətta onlar bildirirdilər ki, Dağlıq Qarabağ istər Ermənistanın, istərsə də Azərbaycanın tərkibində olsun, biz nə qazanacağıq? Məgər indi rahat yaşamırıq? Bu münaqişəni salanlara lənətlər olsun. Amma onlar bu sözləri söyləyəndə də, nədənsə qorxu içərisində olduqlarını gizlədə bilmirdilər.

1988-ci ilin fevralın 20-də DQMV sovetinin növbədənkənar iclası keçirildi. Xankəndində vilayət partiya komitəsinin binası qarşısında 3 min ermənin iştirakı ilə mitinqlər davam edirdi. Vilayət partiya komitəsinə gələn Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi Kamran Bağırov deputatlar qarşısında çıxış etmək fikrini bidirsə də, ona söz verməmişdilər. Kamran Bağırov mitinqçilərin qarşısına çıxarılmalı və əvvəlcədən öyrədilmiş erməni qadınların ona zor tətbiq etməklə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə sənədə qol çəkdirməli idilər. Belə bir bədnam niyyəti başa düşən Kamran Bağırovun köməkçisi Sahib Quliyev Azərbaycanın dövlət başçısını bir bəhanə ilə aradan çıxarır. Onlar Xankəndindəki dəmiryolu vağzalına gəlirlər.



Kamran Bağırov çarəsiz halda dəmiryol vağzalında olanda vilayətin erməni deputatları Dağlıq Qarabağ Muxtar Vilayətin Azərbaycanın tərkibindən çıxarıb Ermənistanın tərkibinə verilməsi haqqında qərar qəbul etmişdilər. Həmin qərar Bakıya, Yerevana və SSRİ Ali Sovetinə göndərilmişdi. O gün Xocalı camaatının, eyni zamanda Dağlıq Qarabağda yaşayan azərbaycanlıların ümidləri puç olmuşdu. Yaşlı adamlar əllərini yelləyib "bu xəmir hələ çoxlu su aparacaq", - demişdilər. Ümid yalnız Allaha qalırdı. Camaatın əkin-biçinə başlamaq həvəsi ölmüş, əlləri işdən soyumuşdu. Mitinqlər, nümayişlər getdikcə daha geniş vüsət alırdı. Dağlıq Qarabağın rayon və qəsəbələrində mitinqlər ara vermirdi. Həmin mitinqlərdə Zori Balayan, Silva Kaputikyanın çıxışları münaqişəni daha da kəskinləşdirirdi. Silva Kaputikyan "Əgər Dağlıq Qarabağın çaylarından su əvəzinə süd axsa belə, onun Azərbaycanın tərkibində qalmasını istəmirik"-deyirdi. Zori Balayanın "Ocaq" kitabı alovlanan ocağın üstünə neft tökürdü. Xocalı hər tərəfdən erməni yaşayış məntəqələrilə əhatə olunmuş bir məkanda yerləşirdi. Əskərana və Xankəndinə gedən magistral yol Xocalıdan keçirdi. Hər gün bu magistral yolla Xankəndinə hərbi texnika və sursat daşınırdı. Şanlı sovet ordusunun qüdrətinə inanan sadə camaat tezliklə bu münaqişənin aradan qalxacağına ümid edirdi. Hər gün AzTV-nin xəbərlərini izləyir, bizim diktorların "Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir və tərkib hissəsi olaraq da qalacaq" sözlərini küçəyə axışıb əl çalmaqla alqışlayırdılar. Hətta mitinqə çıxan ermənilərə cəza veriləcəyinə də inanırdılar.

1988-ci il fevralın 13-dən başlayan mitinqlər, nümayişlər bir gün də olsun ara vermirdi. Fevralın 21-də Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin Siyasi Bürosundan Dağlıq Qarabağ hadisələrinə dair müzakirələr aparılırdı. Fevralın 23-də SSRİ KP MK-nın katibi Q.P.Razumovski başda olmaqla Demi-

çev, Bobrov, Mixaylov və digərləri Xankəndinə gəldilər. Burada DQMV Partiya Komitəsinin büro və plenium iclası keçirildi. İclasda vilayət komitəsinin 1-ci katibi B.Gevorkov vəzifəsindən azad edildi. Onun yerinə qatı millətçi, mitinqlərin təşkilatçısı Q.A.Poqasyan seçildi.

Haşiyə:

Bu yerdə onu da qeyd edim ki, sabiq katib Bahadur Rzayev böyük vətən müharibəsində həlak olan cəbhə dostunun qızını övladlığa götürmüş, onu böyütmüş, sonra isə həmin qız Gevorkovla ailə qurmuşdu. Ona görə də Gevorkov bu postda olduğu müddətdə azərbaycanlılara qarşı o qədər də sərt mövqedə olmamışdı.

Azərbaycan Respublikasının suveren hüquqlarının tapdalanmasına rəsmi Moskvanın qəti tədbirlərlə cavab vermədiyinə görə Azərbaycan xalqı böyük həyəcan içərisində idi. Azərbaycanda kortəbii nümayişlər, etiraz mitinqləri keçirilirdi. Münaqişə bölgəsində yaşayan azərbaycanlılar ermənilərin separatçı hərəkətlərinə qəti etiraz edirdilər. Hətta ayın 22-də rəsmi Bakının göstərişilə Aşağı Qarabağda münaqişənin qarşısını almaq üçün Dağlıq Qarabağa yürüş etdilər. Həmin əliyalın nümayişçilərin qarşısı alındı. O gün mən Əskəranda idim. Əskəran rayon Partiya Komitəsinin binasının önünə xeyli adam toplaşıb mitinq keçirirdi. Əskəranın orta məktəblərindəki şagirdləri də bu mitinqə cəlb etmişdilər. Əllərində plakat tutmuş ermənilər "Miatsum!" deyə qışqırırdılar. Bu an Əsgərana xəbər gəldi ki, Ağdamdan Əskərana hücum edirlər. Aləm bir-birinə qarışdı. Əvvəlcə nə olduğunu bilmədim. Həmin anlarda Əskərandakı idarə və müəssisələrdə çalışan həmyerlilərimiz həyəcan və təlaş içərisində nə edəcəklərini bilmirdilər. "Bizimkilər Ağdamdan Əskərana doğru gəlirlər, qırğın olacaq" - deyərək, hara qaçacaqlarını müəyyən etmək istəyirdilər. Tibb bacıları əyinlərindəki ağ xalatları belə soyunmağa macal tapmamışdılar. Onlar Əskərandan Xocalıya doğru uzanıb gedən üzüm bağlarına tərəf qaçdılar. Bu vaxt Əskərana erməni kəndlərindən əllərində ov tüfəngi, dəhrə, balta tutmuş adamlar axışmağa başladı. Xankəndindəki 366-cı alayın zirehli texnikası və canlı qüvvəsi gəlib yanacaqdoldurma məntəqəsinin yanında dayandı. Onda mən Sovet Ordusunun bizi yox, erməniləri necə canfəşanlıqla qoruduğunu gördüm. Binaların üstündə sinayperlər quruldu. O gün, yəni, 1988-ci il fevralın 22-də təxminən saat 12 radələrində Ağdamdan Əskərana doğru gələn əliyalın azərbaycanlılarımızdan ikisi - Əli və Natiq vəhşicəsinə öldürüldü. On doqquz nəfər isə yaralandı. Bu münaqişə nəticəsində ilk qan töküldü. Bu iki gənci qətlə yetirilənlərə isə o vaxtki Sovet rəhbəri M.Qorbaçov və SSRİ-nin baş prokuroru Komuzev ermənipərəsət mövqe nümayiş etdirdilər, bu gəncləri qətlə yetirənlərə cəza vermədilər. Sadəcə, gənclərin ailələrinə azərbaycanlılar ardı-arası kəsilmədən başsağlığı verməklə kifayətləndilər.

1988-ci ildə Dağlıq Qarabağ münaqişəsilə bağlı SSRİ rəhbərliyi ikili mövqeyini ortaya qoydu. SSRİ rəhbərliyi elə təsəvvür yaratmağa çalışırdı ki, guya o, Azərbaycana və Ermənistana eyni gözlə baxır. Kütləvi informasiya vasitələri Dağlıq Qarabağ probleminə olduqca böyük diqqət yetirirdi. Qeyd edim ki, DQMV-nin harasında tozlu-torpaqlı yollar başlayırdısa, orada azərbaycanlılar yaşayırdı. Dağlıq Qarabağın azərbaycanlılar yaşayan elə kəndləri var idi ki, orada nə məktəb, nə də tibb məntəqələri vardı. Hadisələr başlayanda Sovet İttifaqı Kominist Partiyasının birinci katibi M.Qorbaçov separatçı ermənilərlə hüquqlarını müdafiə edən azərbaycanlıları eyniləşdirirdi. Ermənilərin Dağlıq Qarabağ Muxtar Vilayətində yığılıb qalan problemlərin aradan qaldırılması üçün ayağa qalxdığını, bu səbəbdən mitinq və nümayişlər keçirdiklərini xalqa inandırmağa çalışırdı. Azərbaycandan külli miqdarda vəsait ayrılıb bu problemlərin həllinə yönəldiləndə təəssüf ki, vilayətin azərbaycanlılar yaşayan kəndləri və qəsəbələri unuduldu. 1988-ci ildən başlayan bu hadisələrdə Azərbaycan xalqının iradəsi yox, erməni separatçılarının istəkləri əsas götürülürdü. Erməni daşnakları Sumqayıt şəhərində azərbaycanlılara qarşı qanlı cinayət törətdilər. 1988-ci il fevralın 28-də milliyətcə erməni olan, lakin özünü azərbaycanlı kimi qələmə verən Edik Qriqoryanın başçılığı altında növbəti iyrənc fitnəkarlığa əl atıldı. Ermənistandan qovulan, Sumqayıta pənah gətirən soydaşlarımızın kortəbii çıxışlarından ermənilər ustalıqla bəhrələndilər. Telekanallar əvvəlcədən quraşdırılmış yerlərdə münaqişənin dini

mahiyyət daşıdığını dünyaya bəyan etdilər. Faciə nəticəsində 26 erməni, 6 azərbaycanlı qətlə yetirildi. 200 mənzil qarət edildi. Onlarca ictimai bina, avtobus, şəxsi maşın yandırıldı. Ermənilərin bu faciədən çəkdikləri lentlər xarici ölkələrin telekanallarında nümayiş etdirildi. Onlar beynəlxalq ictimaiyyətdə türklərə qarşı mənfi fikir yarada bildilər. Yaxşı yadımdadır, bu hadisədən dərhal sonra Xankəndində Sumqayıt qurbanlarının xatirəsinə abidə ucaldıldı. Dağlıq Qarabağda yaşayan ermənilər həmin abidənin önünə əklillər qoyub, "Bu qan yerdə qalmayacaq!" - deyə and içdilər. O gün həmin abidəni ziyarət edən erməni qadınlar qara libasa bürünmüşdülər. Sumqayıt hadisələrindən sonra antitürk hərəkatı başlandı. Xankəndi, Əskəran, Hadrut və Mardakertin idarə və müəssisələrində çalışan ermənilər azərbaycanlıları işdən qovdular. Ermənistanda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovuldular. 225 nəfər öldürüldü, 1200 adam yaralandı. Yüzlərlə azərbaycanlıya ağlasığılmaz işgəncələr verildi. Ermənistandakı 185 azərbaycan kəndindən 230 min soydaşımız Azərbaycana pənah gətirdi. Yenə də Moskva və dünya ictimaiyyəti haqqın tərəfində dayanmadı. Dağlıq Qarabağda ən ağır işlərdə çalışan azərbaycanlılarımıza məvacibləri belə verilmədən təhqir olunub işdən qovuldular. 1988-ci ilin martından Dağlıq Qarabağda hadisələr daha da gərginləşdi. Martın 6-da DQMV-nin büro iclası keçirildi. Dağlıq Qarabağ ermənilərinin qəbul etdiyi qərardan ÇIXARIŞ: "Dağlıq Qarabağ Muxtar vilayətinin adı dəyişdirilərək bundan sonra Dağlıq Qarabağ Erməni Muxtar Vilayəti adlandırılsın. Vilayətdə əsas dil erməni dili olsun".

**Haşiyə:**

Xankəndində keçirilən tədbirlər həmişə erməni dilində aparılırdı. Biz bu tədbirlərə çağrılanda saatlarla erməni dilindəki çıxışlara qulaq asmaq məcburiyyətində qalırdıq. Baxmayaraq ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsi idi. Orada azərbaycanlılır, ruslar da yaşayırdı. Hətta belə iclaslarda biz azərbaycanlılar ayağa qalxıb etiraz edəndə, iclası tərk edəndə, onlar açıq-aşkar "Kimin xoşu gəlmir, gedə bilər",- deyirdilər. Biz dəfələrlə Bakıya, səlahiyyətli nümayəndələrə, təhsil nazirinə şikayət məktubu yazırdıq. Fəqət həmin şikayət məktubları



baxılmaq üçün Dağlıq Qarabağda çalışan milliyətcə erməni vəzifəli şəxslərə göndərilirdi.

Dağlıq Qarabağ hadisələri başlayandan qarışıq nikahda yaşayan ailələrin vəziyyəti olduqca ağırlaşdı. Xankəndi Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində müəllim işləyən ər-arvad- Ararat Qriqoryan və Raya Babayevanı bir vaxtlar beynəlmiləlçi ailə kimi tanıdıqlarını bəyan edən ermənilər daş qalaq etdi. Xatırladım ki, Ararat Qriqoryanla Raya Babayeva ali məktəbdə bir yerdə oxumuşlar. Yaxşı yadımdadır, A.Qriqoryan öz tələbələrinə tez-tez belə deyərmiş: "Kaş mənim damarlarımı kəsib yerinə türk qanı qoyardılar". Dağlıq Qarabağ hadisələrindən sonra A.Qriqoryan dünyasını dəyişmiş, R.Babayeva isə Xankəndindəki radio qovşağında diktor kimi çalışırdı.

**Haşiyə:**

Aradan 25 il ötdükdən sonra Xankəndinə səfər edən əcnəbi jurnalist Raya Babayeva ilə görüşüb ondan müsahibə alır. R. Babayeva özünü Rəhilə İbrahimova kimi təqdim edib poçta işlədiyini deyir. Həyat yoldaşının evlərinin həyətinə düşən qrad partlayışından öldüyünü, doğmalarından yalnız xalası qızı ilə Gürcüstanda görüşdüyünü, bunu da Dağlıq Qarabağın Təhlükəsizlik İdarəsinə məlumat verdiyini bildirir. "Həmin idarənin əməkdaşi bildirdi ki, yaxşı edibsən". Xatırladım ki, R. Babayeva Bakının Fatmayi kəndindəndir. Jurnalistə verdiyi müsahibəsində belə deyir: "Fatmayi kəndində uyuyan valideyinlərimin məzarını heç vaxt ziyarət edə bilməyəcəm".

Bu da beynəlmiləl ailənin acı taleyi, faciəsi! R.Babayevanın iki övladı vardı. Yaxşı yadımdadır, qızının adı Susanna idi...

Qeyri-rəsmi statistikaya görə, o zaman Bakıda 150 minə yaxın erməni qadını yaşadığı halda Dağlıq Qarabağda yaşayan Raya kimi azərbaycanılıları barmaqla saymaq olardı.

SSRİ Nazirlər Sovetinin 14 oktyabr 1988-ci il 1208 saylı qərarı ilə Xankəndi Pedaqoji İnstitutu fəaliyyətini dayandırmışdı. Orda işləyən azərbaycanlı müəllimlər təhqir olunaraq işdən qovulmuşdular. Bəzən belə fikirlər də səslənir ki, əgər

vaxtında bu hadisələrin qarşısı alınsyadı, yəni, Dağlıq Qarabağa yürüş edən azərbaycanlıların qarşısı kəsilməsəydi, Qarabağ məsələsi çoxdan həll olunardı. Bir faktı da olduğu kimi nəzərinizə çatdırıram. İşimlə əlaqədar Əskərana getmişdim. İdarə və müəssisələrdə işləyən ermənilər əllərində plakat raykomun binası qarşısında nümayiş keçirirdilər. Nümayişçilərin arasında məktəblilər də vardı. "Miatsum" deyərək qışqırır, ura səsləri eşidilirdi.

Dağlıq Qarabağda yaşayan ermənilər münaqişə başlayanda sosial iqtisadi vəziyyətlərinin ağır olmasını önə çəkmişdilər. Amma istər Xankəndində, istərsə də Dağlıq Qarağın ermənilər yaşayan kənd və qəsəbələrində müasir tipli məktəblər, idarə və müəssisələr vardı. Biz tez-tez ermənilər yaşayan qonşu kəndlərdə dostluq görüşlərinə, idman yarışlarına gedərdik. Bunu hər il ənənəvi olaraq edərdik. Xocalının 46 bəylərindən olan Allahverdi və Qəhrəman bəyin torpaqlarında ermənilərin Noragun (Təzəkənd) deyilən məkanda müasir tipli geniş idman zalı olan ikimərtəbəli məktəbi vardı. Biz ora yarışa gedəndə həmişə həsədlə baxardıq o məktəbə. Bizim məktəbimiz isə köhnə və təmirsiz idi. İki növbədə dərs keçilirdi. Dağlıq Qarabağ münaqişəsi başdayanda ermənilərin sosial iqtisadi vəziyyəti istər Azərbaycanın digər rayonları ilə, istərsə də Ermənistanla müqayisədə, istərsə də ittifaq üzrə ümumi göstəricilərdən üstün idi. Nəhayət, erməni millətçiləri öz xəbis niyyətlərini gizlətmədilər. Onların məqsədləri Ermənistanla birləşmək idi. Yaxşı yadımdadır, kəndimizdə dülgərlik, bənnalıq etməyə gələn erməni ustaları kəndə baxaraq "bura kiçik Hayastandır" deməkdən də usanmırdılar. Qışın oğlan çağında bostanlardakı məhsula baxıb "bu torpaqlar qızıldır, əvəzi yoxdur" deyərdilər. Dağlıq Qarabağ münaqişəsi uzandıqca camaatın da səbri tükənirdi, gündə bir xəbər yayılırdı. Dağlıq Qarabağa Rusiyadan gələn "böyüklərin" ardı-arası kəsilmirdi. Dağlıq Qarabağda yaşayan azərbaycanlılar bu münaqişənin həll olunacağına inamlarını itirməmişdilər. Amma yaşlı adamlar deyirdi ki, "nə qədər burda rusun barmağı var, münaqişə uzandıqca uzanacaq. Onlar istəsələr erməniləri bircə gündə yerlərində oturdarlar". Cavanlarımız isə bu sözə o qədər də inanmırdılar. 1988-ci ilin martında SSRİ rəhbərliyi DQMV-nın sosial-iqtisadi inkişafının



sürətləndirilməsi haqqında xüsusi bir qərar qəbul edərək, Dağlıq Qarabağın Azərbaycan SSR-nin tabeliyindən çıxarılması tələbini qoydu. Dağlıq Qarabağa müstəsna hüquqlar verildi. Külli miqdarda vəsait ayrıldı. Vilayətin bir çox məsələlərinin həlli birbaşa mərkəzi hökumətin nazirlik və qurumlarına həvalə edildi. Xankəndindəki ayaqqabı və ipək fabriklərində, idarə və müəssisələrində çalışan azərbaycanlılar təhqir olunaraq, maaşları belə verilmədən işdən qovuldular.1988-ci il mayın 14-də Şuşada 5 min nəfərin iştirak etdiyi mitinq keçirildi. Onlar DQMV-da işdən azad edilən azərbaycanlıların işə qaytarılması, ermənilərin separatçılıq hərəkətlərinə son qoyulması tələblərini irəli sürdülər. Mayın 16-da isə ermənilər Xankəndində yaşayan yüzlərlə azərbaycanlını döyüb təhqir edərək qovdular. Bütün bunlar 1988-ci il mayın 16-17-də Bakıda gənclərin, tələbələrin, ziyalıların nümayişinə səbəb olmuşdu. Xankəndinə, Əskərana, eləcə də Dağlıq Qarabağ Muxtar Vilayətinin rayon və ermənilər yaşayan kəndlərinə azərbaycanlıların gediş-gəlişi birdəfəlik kəsildi. Kəndimizin lap başında bir klub, ortasında isə mağaza vardı. Kənd camaatı ya kluba, ya da mağazanın başına toplaşıb Dağlıq Qarabağ məsələsini çözməyə çalışırdı. Erməni-müsəlman davasını görənlər, ixtiyar yaşlı Mənzər, Mədinə nənə, Safiyarın oğlu Müseyib, Rəhim dayı, İmmi xala həmişə bu işin qansız-qadasız qutarmayacağını deyərdilər. Orta yaşlı adamlar isə "Arxamızda dağ kimi Sovet hökuməti var", deyir, münaqişənin dinc yolla qurtaracağına inanırdılar. Böyük vətən müharibəsində ayağını itirən Rəşid dayı çəliyinə söykənərək əlini gözünün üstünə qoyub səmaya baxaraq Yerevandan Xankəndinə gündə 28-30 uçuş edən təyyarələrə baxaraq deyərdi: "Görürsüz, bunların içində daşınan ölümsaçan silahlar bir gün başımıza yağacaq. Biz rusun qalib gəlməsi üçün canımızı qurban verdik. Elə bizim kəndin neçə-neçə başıpapaqlısı həlak oldu. Gələnlər də mənim kimi yarımcandılar. Rəşid dayının qapıbir qonşusu Saday dayı isə irigövdəli, yaraşıqlı kişi idi. Qonum-qonşu ondan soruşanda ki, Saday qağa, bu işlərin axırı necə olacaq?, o, gülümsəyərək "O vaxtkı erməni-müsəlman davasına baxmayın. Onda kəndimiz bapbalaca, yastı-yapalaq evlərdən ibarət idi. İndi ucu-bucağı görünmür". Saday dayı o gecə itkin düşdü...

İllərlə Dağlıq Qarabağı Azərbaycandan qoparmağa çalışan erməni millətçiləri bir anda olsun dayanmırdı. Ermənistandan, Rusiyadan Dağlıq Qarabağa zirehli texnika, hərbi sursat göndəriləndə, hərbi bazalar yerləşdiriləndə bizdə genişmiqyaslı tikinti işləri aparılırdı. Bölgələrdən axın-axın işçilər Xocalıya gəlirdilər. Az bir vaxtda Bakıdakı 1 №li evtikmə kombinatı qəsəbədə beşmərtəbəli bina ucaltdı. 86 deyilən yerə qədər uzanıb gedən, yan-yana birmərəbəli evlər tikdilər. Toxuculuq kombinatı tikilib istifadəyə verildi. Dövlət strukturlarında çalışanlar, icra başçısı, prokurorluq, "Xocalının səsi" redaksiyası da yeni tikilən binalarda fəaliyyət göstərdi. Bir sözlə, həyat qaynayırdı. İnsanlarda həyat eşqi, yaşamaq eşqi vardı. Ermənistandan, Dağlıq Qarabağın kəndlərindən, Xankəndindən, eləcə də Özbəkistanın Fərqanə şəhərindən qovulan məshəti türkləri Xocalıya pənah gətirmişdilər. Xocalının Qala dərəsi kəndinin lap yuxarısında Universitet adlanan bir qəsəbə də salınmışdı. Xocalıya böyük yardımlar daşınırdı. Amma buranın qorunması, hər tərəfdən erməni yaşayış məntəqələri ilə əhatə olunmuş bu qəsəbənin müdafiəsi barədə düşünən yox idi. Xakəndindəki ipək fabrikindən qovulan həmyerlilərimiz Xocalıda yeni tikilən Toxuculuq Kombinatında çalışırdılar. Xocalıda xalça sexi də açılmışdı. Bir-birindən gözəl xalçalar toxunurdu. Azərbaycan KP MK-nın 1-ci katibi Ayaz Mütəllibov həmin Toxuculuq Kombinatında kənd sakinlərilə görüş keçirdi. O, çıxışında dedi ki, "Ermənilər burda qonaq, sizsə daimi sakinlərisiz". Amma hər günümüz, hər saatımız təhlükə içərisində idi. Yollarda azərbaycanlılar girov götürülür, döyülür, təhqir olunurdu.

1989-cu il yanvarın 12-də Azərbaycan SSR Ali Soveti Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi barədə qərar qəbul etdi. Həmin qərara əsasən Moskvaya tabe olan müvəqqəti Xüsusi İdarəetmə Komitəsi (XİK) yaradıldı. XİK-nə Moskvanın Xankəndindəki nümayəndəsi, ermənipərəst Arkadi Volski rəhbər təyin edildi. Komitənin tərkibində 5 rus, 2 erməni, yalnız 1 azərbaycanlı vardı. Komitə yaradıldıqdan sonra vəziyyət daha da ağırlaşdı. Amma kəndimizdəki klubda Arkadi Volski ilə görüş keçirilərkən onu güllə, çiçəklə qarşılayan, münaqişənin tezliklə həll olunacağına inananlar da az deyildi. Həmin



görüşdə A. Volski separatizmi geninə-boluna tənqid etdi, tezliklə bu münaqişənin həll olunacağına çalışacağını bildirdi. Komitə yarandığı gündən Azərbaycan qanunları burada işləmədi. Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycandan ayrılıb Rusiyanın ixtiyarına verildi. Ermənilərin əl-qolu daha da açıldı. Gecə-gündüz təyyarələr, vertolyotlar Yerevandan Xankəndinə silah-sursat daşıdı.

...Qızılı payız gələndə kənddə bir canlanma yaranardı. Xocalılar min bir zəhmətlə yetişdirdikləri məhsulu yığıb-yığışdırar, qışa hazırlıq görərdilər. Toylar, düyünlər başlayardı. Ta qışa kimi. Kənddə həyat qaynayardı. Bu payız isə belə olmadı. Hamının əli-qolu işdən soyumuşdu. 1991-ci il sentyabrın əvvəllərində Noraguh kəndinə yaxın Bozdağ tərəfdən atılan raket Lətif kişinin həyatinə düşdü. O gecə yenicə ailə quran Zahidin həyatına son qoyuldu. Lətif kişinin çırağı söndü. Cəmi iki ayın gəlini olan Reyhan boynubükük qaldı. 1 nömrəli ev tikmə kombinatı və qəsəbədə tikinti işləri aparan digər müəssisələrin də işlərini yarımçıq qoyub getmələri adamlarda ruh düşkünlüyü yaratmışdı. Hamı əlini sanki Xocalıdan üzmüşdü. 21 oktyabr 1991-ci ildə Xocalıdan Yevlaxa uçan An-2 təyyarəsi Əskəranda vuruldu. 1991-ci il noyabrın 20-də isə "Mİ-8" vertolyotu Qarakənd səmasında vurularaq yerə salındı.

O zaman Xocalı aeroportunun polis bölməsində cinayət axtarış şöbəsində əməliyyat müvəkkili vəzifəsində çalışan Kamil Məmmədovun dediklərindən:

"1991-ci il noyabrın 15-də saat 16-da Xankəndində Dağlıq Qarabağ Vilayətinin komendant müavini polkovnik Polozov və Təşkilat Komitəsinin üzvlərindən biri Radayev Xocalı təyyarə meydanına gəldi. Polkovnik Polozov mənə dedi ki Bakıdan nümayəndələr gələcək, danışıqlar aparılacaq, əgər danışıqlar baş tutmasa vəziyyət gərginləşəcək. Mən noyabrın 16-da Daxili İşlər Nazirliyinə, Ali Sovetə zəng vurub, gələnlərin kimliyini öyrənmək istədim. Lakin dəfələrlə zəng etməyimə baxmayaraq heç bir dəqiq məlumat ala bilmədim. 20 noyabr 1991-ci il saat 11-dən sonra Xankəndidən qalxan "Mİ-8" vertolyotu Əskəran istiqamətində uçaraq yoxa çıxdı. Keçmiş Daxili İşlər Nazirliyinin vertolyotları Xankəndidən Yerevana sərnişin daşıyırdı. Bu barədə Təşkilat Komitəsinə məlumat vermişdim. Təx-

minən saat 17 radələrində Əskəran tərəfdə iki vertolyot göründü. Vertolyotun biri Xocalının sağ tərəfilə uçaraq Həsənabada, sol tərəflə uçan vertolyot isə Noragun (Təkənəd) istiqamətində uçaraq Daşbulaq kəndində yerə endi. Saat 17 radələrində Ağdamda Təşkilat komitəsində Məmmədov soyadlı birisi mənimlə əlaqə saxlayıb təyyarə meydanına vertolyotun enib-enməməsini soruşdu. Mən gördüklərimi və vertolyotların uçma və enmə istiqamətlərini dedim. Radioda yayımlanan xəbərdə Martuni rayonu Qarakənd yaxınlığında "Mİ-8" vertolyotunun daşa dəyib partladığı xəbərini eşitdim. Xatırladım ki, Polkonik Polozov həmin vertolyotla uçmalı idi, amma nədənsə uçmadı. "Mİ-8" vertolyotunda həlak olmuş rus generallarının dəfn mərasimi nədənsə Rusiya mətbuatı tərəfindən işıqlandırılmadı. Təxribatın əsas şahidi olan qara qutu da açılmadı. Hələ də müəmmalı qaldı. Bu acı xəbərdən bir qədər öncə, yəni 1991-ci il noyabrın 1-də bizim ailəmiz doğmalarımızdan birini, Təşkilat Komitəsinin sədri M.Polyaniçkonun sürücüsü olan Habil Abışovu itirdi. O, Əskərandan keçərkən rus hərbçilərinin gözü qarşısında yanğınsöndürmə idarəsində inspektor vəzifəsində çalışan Qaro tərəfindən güllələnmişdi. Hərbi maşında olan Habilin xalası Matan xanım da aldığı güllə yarasından dünyasını dəyişmişdi. Habil Ağdam Mərkəzi Xəstəxanasına çatdırılsa da, onu həyata qaytarmaq mümkün olmadı. Ata öz oğlunun meyidini Xocalıya gətirmişdi. Elə həmin gün Əskəran qalasına gedən yol betonla hörülmüşdü. O gündən Xocalının quru yolla əlaqəsi tamamilə kəsilmişdi. Ümüd yalnız hava yoluna qalmışdı. Hər gün evdə də, işdə də təyyarə uğultusundan qulaq tutulurdu. 1990-1991-ci il iyun ayına kimi Yerevan- Xankəndi arasında gündə 30 reys edən "YAK-40" təyyarələrinin sayı 4-5-ə enmişdi. Rusiya Daxili İşlər Nazirliyində daxili qoşunlara məxsus vertolyotların sayı getdikcə azalırdı. Avqust ayında Yerevandan Xankəndinə istiqamət alan təyyarələrin uçuşu tamamilə kəsildi".

Payızın ilıq nəvəsi duyulmaqda idi. İlisu çayının kənarındakı Çınqıl təpədə Xocalıda tikinti işləri aparırdılar. 23 saylı Səyyar Mexanikləşdirilmiş Dəstənin işçiləri həmin ərazidə yaşayış evləri inşa edirdilər. Hər gün Ağdamdan Xocalıya gələn bu inşaatçıların məqsədi Xocalıya pənah gətirənlərə ev-eşik qurmaq idi. Bu payız



günündə yenicə tikəcəkləri evlərin özüllərinə baxdıqları vaxt yaxınlıqdakı magistral yoldan Ballıcaya gedən "UAZ" markalı avtomaşından düşən ermənilər yaxın məsafədən pulemyotlardan onlara atəş açdılar. Güllələrdən biri həmin müəssisənin rəisi Tahir Məhərrəmovun həyatına son qoydu. 1991-ci ilin noyabrında Xocalı sakini M.Şanməmmədovun 11 yaşlı oğlu və 60 baş qoyunu ermənilər tərəfindən aparılmışdı. Uşağı buraxdırmaq üçün 2 erməni bizimkilər tərəfindən girov götürülmüşdü. 7 gündən sonra Azərbaycan Resbublikası Nəqliyyat Daxili İşlər İdarəsinin Xocalı Hava limanının polis bölməsində cinayət axtarış şöbəsinin əməliyyat müvəkkili vəzifəsində çalışan K.Məmmədov ermənilərlə danışıqlar aparmış, uşağı buraxdırmış, özü isə iki erməni gələnə qədər uşağın yerinə girov qalmışdı.

"Helsinki Sonamat" (Helsinki xəbərləri) qəzeti 1992-ci il fevralın 27-də Xocalı qırğını barədə yazanda bizim "AzTV" cəmi 2 nəfərin öldüyü barədə xəbər yaymışdı.

Təşkilat Komitəsinin rəhbəri V.Polyanoçkonun göstərişilə 1990-cı il sentyabrın 7-də Bakıdan gələn komsomol komitəsinin 3 əməkdaşı, Əskəran Rayon Partyia Komitəsinin ikinci katibi Ələkbər Mikayılov, Xocalının sabiq icra başçısı Elman Məmmədov, Xocalı Polis İdarəsiini əməkdaşı, leytenant Tahir Vəliyev, Daxili İşlər Nazirliyi Daxili Qoşunların yüksək rütbəli 3 zabiti, Xocalı polis şöbəsində yeniyetmələrlə iş üzrə inspektor Kamil Məmmədov Əskəran Partiya Komitəsinə gedib binanı zəbt edib, katibi girov götürməli idilər. Onlar binaya daxil olub katibəyə yaxınlaşırlar. Katibin yerində olduğunu soruşanda katibə əlini pəncərədən bayıra çıxararaq yellədir. Elə bu vaxt əllərində yaba, balta, dəhrə tutan adamlar içəri soxulub onlara hücum edir. Kamil Məmmədovun sözlərinə görə, ermənilər onların üst-başlarını cırırlar, xəsarət yetirirlər. Aradan 10-15 dəqiqə keçəndən sonra Əskəran rayonu polis əməkdaşlarının müdaxiləsi nəticəsində canımızı qurtardıq. Kor-peşman, təhqir olunmuş halda SSRİ Daxili İşlər Nazirliyi daxili qoşunlarının qərargahına gəldik. Polkovnik İvanov sərxoş halda o baş-bu başa addımlayırdı. Xocalının sabiq icra başçısı E.Məmmədov dedi ki, sizə göstəriş verilib ki, bizi qoruyasız. O isə cavabında laqeydcəsinə "Bu gün mənim istirahət vaxtımdı. Məni narahat etməyin" söylədi. Biz kor-peşman evimizə qayıtdıq.

"Sentyabrın 25-i səhər saat 10 radələrində Xocalıya inşaatçıları aparan 75-33 AQO dövlət nömrə nişanlı "QAZ-53" markalı avtobus və maşın karvanı Əskəran qəsəbəsinin mərkəzində daş-qalaq edilib. Başından zərbə alan sürücü huşunu itirmiş və avtobus aşmışdır. Nəticədə 16 sərnişin müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Hadisə yerinə gələn Xocalı şəhər milis bölməsinin əməkdaşları və maşın karvanının sürücüləri yaralıları xilas ediblər. Onlara Ağdam Rayon Mərkəzi Xəstəxanasında tibbi yardım göstərilmiş, yaralılardan 6 nəfərin, xüsusilə sürücü Həsən Həsənovun vəziyyəti ağırdır".

Martın 24-də Şuşa rayon Daxili İşlər Şöbəsinin rəis müavini, milis mayoru Eldəniz Quliyevin verdiyi məlumata görə, Xankəndi tərəfdən şəhərə gələn yolun döngəsi atəşə tutulmuşdu. 2 saatadək davam edən döyüşdə Milli Ordunun iki döyüşçüsü itkin düşmüşdü. Hər gün Xocalı aeroportuna müxtəlif təyyarələr enir. Erməni yaşayış məntəqələrində azərbaycanlılara qarşı edilən haqsızlıqlara dözməyən Xocalı sakinləri, xüsusilə gənclər magistral yoldan keçən maşınları daş-qalaq edirdilər. Çünki bizim maşınlarımız da Əskəranda, Xankəndində daşqalaq edilirdi. Günlərin birində Xankəndindəki 366-cı alayın hərbçiləri Xocalıdan keçən magisrtal yolda qadınları, uşaqları amansızcasına döymüş, qol-qabırğalarını sındırmış, ağır xəsarətlər alanlar olmuşdu. Onlardan biri poçtun müdiri Temir Məmmədov idi. 1991-ci il aprelin 28-də Xocalı İpək fabrikində keşik çəkənlərə ermənilər kiçik dəstə ilə hücum etmişdilər. Bu təxribatın qarşısının alan Füzuli Rüstəmov rus hərbçilərinin "ədalətli hökmü" əsasında 15 gün müddətinə Xankəndindəki "KPZ"yə salınmışdı.

Xankəndində yerləşdirilmiş 366-cı motoatıçı alayın ermənilərə satılmasını Marşal Şapoşnikov və onun əlaltıları etiraf etmək istəmirdilər. Nəhayət, martın 9-da alayın zabit və əskərləriini əksəriyyəti Gürcüstana köçürüldükdən sonra Zaqafqaziya hərbi dairəsi qoşunlarının komandan müavini general-leytenant Sufiyan Bəhayi rus hərbçilərinin ikiüzlülüyünü təsdiq edən faktlar söylədi. General 366-cı alayın Xankəndindən çıxarılması ərəfəsində yaranmış vəziyyəti şərh edərkən bunları dedi:



- Alayın komandiri podpolkovnik Yuri Zarviqorova bir əmr verilmiş, o isə başqa cür hərəkət etmişdir. Zarviqarovun özbaşınalığı nəticəsində köməyə gələn desantçılardan biri ermənilər tərəfindən öldürülmüşdü. İkinci batalyonun komandiri Seyran Ohanyan çoxlu sayda texnikanı, o cümlədən, 17 BMP-ni, 4 zenit qurğusunu ermənilərə təhvil vermişdi.

O, daha sonra bildirmişdi ki, 366-cı alayda xidmət etmiş əliqanlı 54 erməni zabit və əsgəri qaçıb. Silah və hərbi texnikanı əldə etmək məqsədilə Ermənistanda yüksək rütbəli 10 rus zabiti girov götürülüb.

1991-ci il sentyabrın 26-da Əskəran qalasının yaxınlığında Xocalı DİŞ-in iki əməkdaşı - Natiq Əhmədov və Əli Vəliyev sübh tezdən Ağdamdan Xocalıya gələrkən 06 markalı "Juqili"də erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirildilər. Onların hər ikisinə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adı verildi. Kənddə Rusiya, Qazaxıstan və Azərbaycan prezidentlərinin Dağlıq Qarabağa gələcəkləri barədə xəbərlər yayılmışdı. Camaat hazırlaşırdı ki, Xocalı aeroportuna gedib onlara ürəklərindən keçənləri desinlər. 1991-ci il oktyabrın 21-də səmada təyyarə göründü. Həmin təyyarə Xocalı aeroportuna endi. "YAK-40" təyyarəsindən Rusiya prezidenti Boris Yeltsin, Qazaxıstan prezidenti Nursultan Nazarbayev endi. Onları Dağlıq Qarabağın səlahiyyətli nümayəndələri və milli geyimdə olan erməni qadınları duz-çörəklə qarşıladı. Sonra B.Yeltsinin şəxsi avtomobilində Rusiya və Qazaxıstan prezidentləri Xocalıya ezam olunmuş SSRİ DİN daxili qoşunların, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşlarının müşayəti ilə Xankəndinə yollandılar. Üstündən yarım saat keçəndən sonra Azərbaycan Respublikasının Prezidenti "YAK-40" təyyarəsində Xocalı aeroportuna endi. O, pərt halda BTR-lə Xankəndinə getdi. Azərbaycanlılarla görüşü təxirə saldılar, icazə vermədilər ki, kənd camaatı Xocalı aeroportuna getsin. AzTV-nin əməkdaşı Nadejda İsmayılova, İstanbulda çıxan "Zaman" qəzetinin müxbiri Yılmaz Polad və başqa jurnalistləri Xankəndinə aparan olmadığından onlar aeroportdan taxıl zəmisinin içi ilə Xankəndinə piyada getmək istəyəndə, Xocalı milis bölməsində əməliyyat işləri üzrə rəis müavini Hafiz Ədilov "UAZ-



F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 84376

469" markalı maşını ilə (adını unutduğum) sürücüsü ilə birlikdə həyatını təhlükəyə qoyaraq jurnalistləri Xankəndinə apardı. Orada isə N.İsmayılovanın təhqir olunduğunu, Y.Poladın paltarının cırıq-cırıq edildiyini televiziyada gördük. 1991-ci il oktyabrın 8-i saat 22:30-da postda dayanan Vaqif Yusif oğlu Beybudov aldığı güllə yarasından dünyasını dəyişdi. Vaqif yenicə ailə qurmuşdu. Heç nişanəsi də qalmadı. 1990-cı ildə Xocalıya rayon və şəhər statusu verildi. Ermənistandan, Özbəkistanın Fərqanə şəhərindən qovulanlar Xocalıya pənah gətirdilər. Onlar Xocalıdakı mədəniyyət evlərində, məktəblərdə yerləşdilər. Xocalıya, Dağlıq Qarabağın şəhər və kəndlərinə üz tutan qaçqınları vilayətdə yerləşdirmək əvəzinə, o vaxtkı rəhbərlik onları geriyə, Ermənistana qaytardılar. Yaxşı yadımdadır, onlar məcburən Ermənistana göndəriləndə göz yaşlarını axıdırdılar. Getmək istəmirdilər. Soyuq dekabr günlərində onları ayaqyalın, başıaçıq dədə-baba yurdlarından qovdular. Bu qaçaqaçda 217 azərbaycanlı ermənilər tərəfindən öldürüldü. Xocalı böyüyür, tikinti işləri sürətlə aparılırdı. Xankəndinə isə hava və quru yolla hərbi texnika, hərbi sursat daşınırdı. Hər gün "Qrad", "Alazan" qurğularından şəhər atəşə tutulur, evlər dağılır, insanlar ölürdü. Belə vaxtlarda Təşkilat Komitəsinin əməkdaşları - polkovnik Muradov, polkonik Seyran əllərində diplomat Xocalıya gəlir, dağılmış evə, ölmüş mal-qaraya görə sakinlərə dəyən ziyanı artıqlamasilə ödəyirdilər ki, təki şikayət etməsinlər. Xocalıya və Dağlıq Qarabağın kəndlərinə Azərbaycandan yardımlar gəlirdi. Bu yardımlar ev əşyaları, qab-qacaq, xalça-palaz və s. idi. Onsuz da hər kəsin evində olan bu məişət əşyaları kimə və nəyə lazım idi. Amma bunun əvəzinə Xocalının müdafiəsini möhkəmlətmək lazım idi. Tikmək və yardım gətirmək yox.

Onlar bir vaxtlar Xocalıdan üz çevirib getmişdilər. Xocalı öz dərdilə baş-başa qalmışdı. Belə bir vaxtda, yəni 1991-ci il dekabrın 29-da Bakıdan jurnalistlərin gəldiyi xəbərini eşitdik. Onları Xocalı aeroportundan özünümüdafiə batalyonunun əsgərləri maşınlarla Xocalı İcra Hakimiyyətinin binasına gətirdilər. Camaat çarəsiz mühasirədə qaldıqlarından qəzəblərini jurnalistlərin üstünə tökdü. AzTv-nin ünvanına təhqiramiz ifadələr də işlətdilər. "Nə çəkəcəksiz? Çəkdiklərinizin



bizə nə xeyri?" kimi suallar yağdırmağa başladılar. Xocalıda mövcud vəziyyət, əhalinin güzaranı o qədər ağır idi ki, qonaqları qarşılamağa, onlara layiqli süfrə açmağa imkan belə yox idi. Şəhərdə ərzaq qıt idi, demək olar ki, tükənmişdi. Çəkiliş qrupuna daxil olan jurnalistləri - operator Vaqif Babayevi, mərhum rejissor Adil Əsədovu, AzTV-nin "Xəbərlər" baş redaksiyasının şərhçisi Qulu Məhərrəmlini maliyyə şöbəsinin müdiri Sahib Əliyev qonaq aparası oldu. Həmin jurnalistlər 10 gün Xocalıda qaldılar. Xocalıdan reportajlar hazırlandı. Çox təəssüf ki, həmin reportajların olduqca cüzi bir hissəsi televiziya ekranlarında göstərildi. Orada çəkilən əksər sujetlər nədənsə göstərilmədi.

Xocalı aeroportunda cinayət axtarış şöbəsində çalışan Kamil Məmmədovun bizə dediklərindən: "Aeroportda çox maraqlı hadisələrin, səlahiyyətli nümayəndələrin gəlişinin şahidi olmuşam. 1991-ci ilin oktyabrında Bakıdan Ali Sovetin sədri Tamerlan Qarayevi, deputat Faiq Baxşəliyevi, Araz Əlizadəni, respublika prokurorunun müavini Murad Babayevi gətirən təyyarə aeroporta endi. Onlar Xankəndinə getməli idilər. Təəssüf ki, SSRİ Daxili İşlər Nazirliyi daxili qoşunların əməkdaşlarının ezamiyyət müddəti qurtardığından Xocalını tərk edib getmişdilər. Tamerlan Qarayev bir neçə yerə zəng etdi. Lakin nə SSRİ Daxili İşlər Nazirliyinin əməkdaşları, nə də ki Təşkilat Komitəsinin əməkdaşları onları qarşılamağa gəlmədilər. Nə də bir "BTR" verilmədi ki, onlar özləri Xankəndinə getsinlər. Aeropotda 4 saatdan artıq gözləsələr də, heç nə əldə edə bilmədilər. Nəhayət, Ağdama getməyə məcbur oldular. Təşkilat Komitəsinin sədri V.Polyaniçko vəzifəsindən azad edildikdən sonra onun yerinə Ağdam Təşkilat Komitəsinin sədri Zülfü Hacıyev təyin edildi. Yaxşı yadımdadır. Xocalıya dəmiryolu vasitəsilə bir vaqon un, 6 vaqon yanacaq göndərmişdilər ki, Xankəndinə yola salınsın. Qəzəblənmiş, ərzaq, yanacaq çatışmazlığından əziyyət çəkən Xocalı camaatı dəmiryolu işçiləri başda xalq cəbhəsinin sədri Rövşən Həsənov olmaqla vaqonların qabağını kəsərək Xankəndinə buraxmamışdılar. Onlar gecə ikən Həsənabaddakı dəmiryolu relslərini sökmüş, həmin vaqonları Ağdama yola salmışdılar. Aradan bir neçə gün keçəndən sonra həmin vaqonlar yenidən Ağdamdan gön-

dərilmişdi ki, Xankəndinə yola salınsın. Xocalıda çörək sexində un olmadığından camaat korluq çəkirdi. Belə bir vaxtda Xalq Cəbhəsinin sədri R.Həsənov vaqonun möhürünü qırıb həmin "dəyirmana" üç ton un vermişdi. Bu vaxt Gəncədən istintaq aparmaq üçün müstəntiq gəldi, cinayət işi qaldırıldı. Aradan az keçmədi ki SSRİ DİN daxili qoşunların əsgərləri dubinkalarla gəlib etiraz edən xocalıları döyüb təhqir etdilər. Çox təəsüf ki, Ağdam Təşkilat komitəsinin sədri Zülfü Hacıyev də bu ədalətsizliyə laqeyd qaldı. Həmin vaqonu Xocalıdan Xankəndinə aparmaq mümkün olmadığından Əskərana yola saldılar.

Artıq dekabr ayında Xocalıdan dəstə-dəstə adamlar aeroporta axışır, Ağdama getmək istəyirdilər. Amma vertolyota minmək hər kəsə nəsib olmurdu. Belə günlərin birində Xocalıya jurnalistlərin gəldiyini eşitdik. "Niyə kadrların hamısı göstərilmədi?" sualını həmyerlilərim tez-tez verərdi. Görək bu suala Qulu Məhərrəmli özü nə cavab verir: "AzTV-nin xəbərlər proqramı üçün çəkdiklərimin hamısı yayımlanıb. Mənim özümdə saxladığım lentləri də AzTV-yə verdim, yayımlandı. Lentlər tam həcmdə qalmır, arxivdə bir müddət saxlandıqdan sonra məhv edilib. Tərkibində gümüş olduğu üçün o lentlər uzun müddət saxlanılmır. Bəlkə də indi axtarılsa, o lentlər tapıla bilər. Xəbərlər proqramı üçün çəkdiyimiz kadrların lentləri məqsədli şəkildə məhv edilməyib, qayda belədir". Qulu Məhərrəmli və onunla gələnlər 10 gün Xocalıda qalmağa məcbur oldular. Onlar Bakıya qayıda bilmirdilər. Bakıdan gəlmiş könüllülərdən ibarət dəstənin üzvlərinin köməyi sayəsində jurnalistəri vertolyota mindirmək mümkün olmuşdu. Xocalıların çoxu son damla qanlarına qədər döyüşüb şəhid oldular. Xocalıya axırıncı vertolyot 1992-ci il fevralın 13-də gəlmiş, 300-ə yaxın adam çıxarılmışdı. Səhərisi gün general polkovnik Pamrukiyev vertolyotların uçuşunu qadağan etmişdi. Viktor Şevçiyenko "Sovetski Voin" 26 may 8. "525 qəzet"". Axırıncı vertolyotun uçuşundan sonra kəndə bir ölüm sükutu çökmüşdü. Hərbi vertolyotun bir daha gəlməyəcəyini billəndən sonra insanların ümidi hər yerdən kəsilmişdi. Gecələr bu ölüm sükutu daha dəhşətli olurdu. Kimin çənində azca yanacaq qalmışdısa, şükür edirdi. Çünki nə Kətik meşəsindən bir şələ odun qırmağa imkan vardı, qaz



xətləri isə Noraguh tərəfdən partladılmışdı. İnsanlar gündən-günə ümidlərini itirirdilər.

Üzük qaşı tək erməni yaşayış məntəqələri ilə əhatə olunmuş kəndimizə hər gün top atılır, evlərimiz dağılır, adamlarımız ölürdü. Bunlar "Xocalının səsi", "Qarabağ" qəzetlərində öz əksini tapsa da, Azərbaycan mətbuatında işıqlansa da, nəticəsi yox idi.

Ayağının birini çəkən "uçastkovu" Rafiqin gəlişini kəndimizdə heç kim istəməzdi. O gələndə ya həyət-bacanı axtarıb taxta-şalban tapan kimi aktlaşdırır, ya da şuluqluq edən kimsə varsa, onu tutub aparırdı. Nənəm Rafiqin başını görən tək gileylənərdi: "Vay, yenə bu qırmızıpapaqlı gəldi. Görəsən kimin evini yıxacaq?" İllər ötdü, Xocalıya sahə müvəkkili təhkim olundu. Baş leytenant Tahir Vəliyev hər gün üç bölük kəndi qarış-qarış gəzər, asayişin keşiyində dayanardı. Qarabağ hadisələri başladı. 1991-ci ilin mayında Xocalı milis bölməsi yaradıldı. Cəmi bir sahə müvəkkili olan Xocalı şəhər milis bölməsinə 58 nəfər işə qəbul olunaraq fəaliyyətə başladılar. Əvvəlcə iki vaqonda yerləşib işə başlayan əməkdaşlar üçün yeni bir bina tikildi. Xatırladım ki, bu bölmə əvvəllər Əskəran rayonu Daxili İşlər Şöbəsinin tabeçiliyində idi. Bu səbəbdən Qarabağ münaqişəsi başlayandan xocalılar xeyli çətinliklərlə üzləşirdilər. Silah-sursat ala bilmirdilər. Texniki rabitədən korluq çəkirdilər. 1991-ci il iyunun 5-i Xocalı milisinin yarandığı gündür. Xocalı milis bölməsinin 52 otaqdan ibarət ikimərtəbəli binasının inşası başa çatdırıldı. 1991-ci ilin iyunun 5-də Azərbaycanın daxili işlər naziri Məhəmməd Əsədov və Ağdam rayon Polis İdarəsinin rəisi İslah Paşayev Xocalıya gəldilər. Xocalıların səbr kasası artıq dolmuşdu. Binanın qabağına toplaşan insanlar nazirə tərəf hərəkət etməyə başladılar. Nazir dayandı. Xocalı polis bölməsinin rəisi S.Məmmədov camaatı sakitləşdirsə də, gərginlik davam edirdi. Nazir M.Əsədov və İ.Paşayev vertolyota minsələr də dəliqanlılar vertolyota tərəf daş atmaqla qəzəblərini soyudurdular. Əsgəran rayonunun Xocalı şəhərində rabitə qovşağı istifadəyə verilmiş, yeni təmir tikinti idarəsi açılmışdı. 50 abonentlik ATS-in tutumu 200-ə çatdırılmışdı. M-60 şəhərlərarası kommutator quraşdırılmışdı.

Xocalıdakı rabitə qovşağında 6-23-72 nömrəsilə Ağdama, Şuşaya, Bakıya məlumatlar verilmiş, danışıqlar aparılırdı. Burda çalışan qızlar özlərini xoşbəxt hiss edirdilər ki, onlar da Xocalıya bununla kömək edirlər. Düz 22 ildir bu telefonlar susur. Orda çalışan qızlardan Gülbaharın baharı gəlmədi, Sevincin sevinci gözündə qaldı, Gülşənin ayaqyalın Xocalıdan Ağdama qaçmaq arzusu çin olmadı. Telefon qovşağının rəisi Cavid Əliyev isə o gecə atası Ələkbəri itirdi. Bu nömrə düz 22 ildi ancaq yaddaşlarda qalıb. Bu nömrə ilə o gecə hər tərəfə haray çəkildi. Azərbaycanın hər yerindən Xocalıda tikinti işləri aparmaq üçün tələbə briqadaları axışıb gəlirdi. Onlardan biri də Azərbaycan İnşaat İnstitutunun Fuad Babayev adına tələbə inşaat dəstəsi idi. Onlar iyulun 7-də Xocalıya gəldilər, iyulun 8-də işə başladılar. Bir qismi tikilməkdə olan xəstəxana kompleksində, bir qismi də yoluxucu xəstəliklər binasında örtük və abadlaşdırma işləri görürdülər. Dəstə üzvləri Naftalandan, Gəncədən gəlmiş inşaatçılarla tez bir zamanda ünsiyyət tapdılar. Tələbə- inşaat qərargahında F.Babayevin şəkli altında isə tələbənin tərcümeyi-halı asılmışdı. Kənd camaatı, xüsusilə 86 yaşlı Məhəmməd Abbasov onlara tez-tez baş çəkir, şirin söhbətlər edirdi. Onlar Xocalıda tikinti işləri aparmaları ilə qürur duyur, fəxr edirdilər. "Biz bu hərəkətimizlə şəhid Fuad Babayevin ruhunu şad edirik"- deyirdilər. Yay tətili başa çatdı. Dəstə üzvləri Xocalıdan ayrılmaq istəmirdilər. "Biz daha çox işlər görəcəyik"- deyirdilər. O vaxtlar Xocalıya gələn gənclərin hamısında bir coşqu, yüksək ruh vardı. Xocalını bütün Azərbaycan tikirdi.

İsti avqust ayının sonları idi. Yeni məktəbin açılışına 2-3 gün qalmışdı. Hər gün atəş altında yaşamağa məcbur olan camaat məktəbin açılmasını az qalıb yadlarından çıxarsınlar. Avqustun 28-i gecə saat 3 radələrində şəhər qrad qurğusundan atəşə tutuldu. Bu raket "yağışı" Mehdikənd, Noragül və Əskəran istiqamətlərindən yağırdı. Avtomatlar, pulemyotlar şaqqıldayırdı. Səs-küyə qəfil yuxudan ayılan sakinlər bilmirdilər hara üz tutsunlar. Qadınlar, uşaqlar, qocalar zirzəmiyə doluşub həyəcanla bu vəziyyətin nə vaxt bitməsini gözləyirdilər. Postda duranlar isə cavab atəşi açırdılar. Bu dəfə insan tələfatı olmasa da, şəhərin baş



qaz kəməri sıradan çıxmış, təzə məktəbin həyətinə, bir neçə ictimai binaya, yaşayış evinə ziyan dəymişdi. Sürəyya xalanın həyətinə düşən raket evindəki əşyalarını sındırıb tökmüşdü. Vaxtilə bu evə gəlin gəlmiş Sürəyya xalanı qabaqda daha dəhşətli faciələr gözləyirdi. Onun oktyabrın 8-də postda dayanan oğlu güllə yarasından dünyasını dəyişdi. Sürəyya xala oğlunun boyuna baxıb gözüdolusu fərəhlənə bilmədi. Hər səhər kənd camaatı Sürəyya xalanın gur səslə oğlunu oxşaya-oxşaya ağı deməsinə oyanardı. Həmin günün səhərisi, yəni avqustun 29-da Xocalı sakinləri respublikanın hər yerindən axışıb gələn inşaatçılarla birlikdə mitinq keçirdilər. Mitinqdə Xocalının təhlükəsizliyinin təmin edilməsi, ermənilər yaşayan kəndlərdə hərbi əməliyyatların aparılması, "Qrad" və "Alazan" qurğularının ləğv edilməsi şüarlarını irəli sürdülər. Əks halda şəhəri tərk edəcəkləri bəyanatı ilə mitinqi başa çatdırdılar. Mitinqdə Xocalı şəhər sovetinin sədri Elman Məmmədov da iştirak etdi. Çox təəsüf Ki, fövqəladə vəziyyət rayonunun komendatlığına və Respublika Daxili İşlər Nazirliyinə ünvanlanan bu tələblər cavabsız qaldı. Daxili işlər naziri Məhəmməd Əsədov Xocalı polis bölməsinin binasının açılışına gələndə ünvanına söyləninlən sözlərə görə sabiq icra başçısından narazı qaldığını dilə gətirmişdi.

Sentyabrın 10-u gecə saat 4-dü. Xocalı yenə hər tərəfdən raket atəşinə tutulur. O raketlərdən biri yenicə ailə quran Muradov Zahid Lətif oğlunun həyatına son qoydu. Onun 17 yaşlı qardaşı Mahir Muradov isə ağır yaralandı. Xocalının 5 addımlığında olan Noragün kəndinin yaxınlığındakı Bozdağ istiqamətində hərbi poliqon yerləşirdi. Xocalı saatlarla "Alazan" qurğularından atəşə tutulanda rus əsgərləri bunun qarşısını almırdılar. Vəziyyət gündən-günə ağırlaşırdı. Kəndimizdə isə müdafiəni möhkəmləndirmək əvəzinə tikinti işləri geniş vüsət alırdı. Çox təəssüf ki, hərbi komendantlıqa dəfələrlə erməni yaşayış məntəqələrindən şəhər aramsız raket atəşinə tutulanda bu barədə məlumat verilsə də, heç bir ölçü götürmürdülər. Fəqət magistral yolda erməni maşınına bir daş atılardısa, o dəqiqə Xankəndindəki 366-cı alayın əsgərləri gəlir, qadına-uşağa baxmadan dubinki ilə hamını döyürdülər. Bu barədə Respublika Pre-

zidentinə, müvafiq orqanlara dəfələrlə teleqramlar vurulsa da, hamısı cavabsız qalardı.

Xocalı aeroportunda "YAK-40" təyyarəsi ilə Xankəndindən Yerevana gündə 28-30 reys edilirdi. Bakıya isə cəmi 1 reys olardı. Bəzən bu reys də təxirə düşərdi. Bu reyslərdə Xankəndindən ərzaq dolu yeşiklər Yerevana daşınardı. Hər gün hərbçilərlə birlikdə xüsusi təyinatlı azərbaycanlı milis işçiləri də sərnişinləri və onların yüklərini yoxlamadan keçirirdilər. Qeyd edim ki, aeroportun rəisi əvvəllər milliyyətcə erməni idi. Xankəndindən Yerevana nəyin daşındığı bilinmirdi. Ərzaq qıtlığı yaşanan o ərəfədə respublikamızın ərzağı Yerevana daşınırdı. Magistral yolla isə 366-cı alayın hərbçiləri silah-sursatı, hərbi texnikanı Xankəndinə daşıyırdılar. Azərbaycanlılar isə neçə-neçə postlarda yoxlamadan keçərək Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərinə gəlib gedirdilər.

Xocalıda tikinti işləri surətlə aparılırdı. Burada sosial obyektlər, mədəni-məişət və ictimai-iaşə sahələri, Ağdam texniki peşə məktəbinin filialı və 7 illik musiqi məktəbi açılmışdı. Şuşa şəhər əmanət bankının filialı, sosial təminat şöbəsi, təsərrüfat hesablı qaz idarəsi, ictimai nəqliyyat idarəsi, aqrar-sənaye birliyi, şəhər istehlak cəmiyyəti, avtobaza, kommunal müəssisələr fəaliyyətə başlamışdı. Xankəndindəki ipək kombinatından işdən qovulan azərbaycanlılar Xocalı toxuculuq kombinatında çalışırdılar. Yaxşı yadımdadır, yayın əvvəlləri idi. Xocalıya gələn Azərbaycan Respublikasının prezidenti Ayaz Mütəllibov həmin kombinatda əhali ilə görüşəndə bildirmişdi ki siz buranın sahibisiz, ermənilər isə qonaqdır. Onun bu sözlərinə xocalılar uzun-uzadı əl çalıb alqışlamışdı.

1991-ci ilin Novruz bayramıdır. Amma bu bayramın sevinci hiss olunmur. Çünkü bu yolla zirehli texnika gecə-gündüz nəsə daşıyır. Çat-çat olan bu yollarda rus əsgərləri Xocalının içindən keçərək ermənilər yaşayan kəndlərə gedir, gurultudan qulaq tutulurdu. İnsanlarda bir qorxu, bir təşviş vardı. Adamların yazqabağı əlini-qolunu çırmayıb iş görməyə həvəsləri də qalmamışdı. Toy-büsat səsinə, cərgə ilə düzülən gəlin maşınlarının sədasına həsrət qalmışdılar. İndi bu yollarla aşağı-yuxarı üzlərindən kin-küdurət yağan hərbçiləri daşıyan maşınlar



